**UOT:94.(479.24).**

# ZƏNGƏZUR QƏZASININ KƏND MƏKTƏBLƏRİ (XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİ)

***Baxışova Rəna Rizvan qızı***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***rena-bakishova@mai.ru***

**Xülasə:** *Şimali Azərbaycanda çarizmin fəthindən sonra dövlət məktəblərinin sayı az olduğuna görə kənd əhalisi dünyəvi təhsildən kənarda qaldı. Ziyalıların səyi nəticəsində 1876-cı ildə Cənubi Qafqazda açılan ilk üç kənd məktəbi sırasında Zəngəzur qəzasının Gorus kəndində birsinifli normal kənd məktəbi var idi. Bundan sonra kənd məktəblərinin sayı artdı. Məqalədə aydın şəkildə göstərilir ki, Qarabağın rayonları arasında ən çox kənd məktəbi Zəngəzur qəzasında yerləşirdi.*

**Açar sözlər:** Qarabağ, Zəngəzur qəzası, kənd məktəbləri, dünyəvi təhsil, şagird.
**Key words:** Garabagh, Zangezur district, rural schools, secular education, student.
**Ключевые слова:** Гарабаг, Зангезурский уезд, сельские школы, светское образование, ученик.

Şimali Azərbaycanın çarizm tərəfindən işğalından sonra meydana gələn dövlət məktəblərinin həm sayca azlığı, həm də silki xarakter daşıması yalnız yuxarı təbəqələrin, xüsusən də şəhər əhalisinin təhsil almasını təmin edirdi. Kənd əhalisi, demək olar ki, dünyəvi təhsildən kənarda qalmışdı.

Ziyalıların tələbləri nəticəsində XIX əsrin 70-ci illərindən etibarən Şimali Azərbaycanın rus kəndlərində olduğu kimi azərbaycanlı kəndlərində də dünyəvi təhsil verən kənd (xalq) məktəbləri meydana gəlməyə başladı. Bu məktəblər çar hökumətinin 1873-cü il tarixli “Cənubi Qafqazda tədris hissəsinin təşkili haqqında” qanunu ilə rəsmiləşdirildi və qanuna görə quberniya və ya vilayətlərin hər birində üçə qədər normal kənd məktəbi açıla bilərdi [26, 109-110; 33, 524-525]. Kənd məktəbləri bir və ya iki sinifdən ibarət ola bilərdi. Birsinifli məktəbdə təhsil müddəti üç, ikisinifli məktəbdə isə beş il idi [20, 374].1875-ci il fevralın 18-də bu məktəblərin ştat cədvəli təsdiq edildi.

Qafqazda, ilk olaraq 1876-cı il sentyabrın 1-də Qazax qəzasının Dağkəsəmən kəndində ikisinifli, Zəngəzur qəzasının Gorus, Cəbrayıl qəzasının Cəbrayıl kəndlərində birsinifli normal kənd məktəbləri açıldı. Kənd məktəblərinin ilk olaraq bu bölgələrdə açılmasının səbəbi bu kəndlərin inzibati mərkəzlər olması, həm də yerli əhalinin belə məktəblərə maraq göstərməsi və məktəbə maddi yardım etməyi, müəllimlər üçün yaşayış binaları tikməyi öhdələrinə götürmələri ilə bağlı idi [19, 216].

Təhsil almaq istəyənlərin sayının çox olmasına baxmayaraq məktəb binalarının darısqal olması səbəbindən Dağkəsəmən məktəbinə ilk olaraq 40, Cəbrayıl məktəbinə isə 24 şagird qəbul edilmişdi. 1882-ci ildə Zəngəzur qəzasının Qarakilsə və Qubadlı /12.IX/ kəndlərində də kənd məktəbləri fəaliyyətə başladı [19, 217, 229].

Orta məktəblərin azlığısəbəbindən kəndli uşaqlarının orada təhsil ala bilməməsi və Cənubi Qafqaz Müəllimlər Seminariyasının məzunlarının artması nəticəsində xalq məktəblərinin şəbəkəsinin genişlənməsiilə əlaqədar 1883-cü ildən başlayaraq, bölgədə kənd məktəblərinin sayının artması müşahidə olunurdu. 1883-cü il sentyabrın 12-də Şuşa qəzasının Ağdam, sentyabrın 18-də Lənbəran, Ağcabədi, oktyabrın 17-də Cəbrayıl qəzasının Qarğabazar, oktyabrın 25-də Cavanşir qəzasının Alpout, Bərdə, oktyabrın 26-da Kasapet [19, 229], 1884-cü ildə Şuşa qəzasının Hindarx; 1885-ci ildə Cəbrayıl qəzasının Hadrud, Şuşa qəzasının Tuğ və Gulablı, Cavanşir qəzasının Sarov; 1890-cı ildə Zəngəzur qəzasının Minkənd; 1891-ci il dekabrın 15-də Cavanşir qəzasının Vəng; 1897-ci ildə isə Şuşa qəzasının Xankəndi və Tuğ, Cəbrayıl qəzasının Qarabulaq, Zəngəzur qəzasının Dığ kəndlərində kəndli

uşaqlarının təhsil alması üçün kənd məktəbləri fəaliyyətə başlamışdı [18, 32-41]. Ağdam məktəbi 10, Ləmbəran 20, Qarğabazar 12, Alpout 6, Bərdə 4, Kasapet 17 şagirdlə ilk tədris ilinə başlamışdı [34, 633].

Məktəblərin sayının xeyli məhdudluğu nəzərə alındıqda əminliklə iddia etmək olar ki, ibtidai məktəblər kənd əhalisi arasında savadın yayılmasında elə də əhəmiyyətli rol oynaya bilmirdi [22, 14(334)].

Məktəblərin tədris planına şəriət, ana dili, rus dili, hesab, coğrafiya, tarix, təbiət, rəsm, və hüsnxətt daxil edilmişdi [19, 242; 20, 30(374)]. Bu məktəblərin tədris planındakı qeyri-məcburi fənnlər sırasında nəğmə, gimnastika, əl işi, sənətkarlıq, xarratlıq, cildləmə, tornaçılıq, çilingərlik, pinəçilik, bağçılıq, tərəvəzçilik və ipəkçilik var idi [21, 83(787); 22, 29(349)]. 1893-cü ildə nəğmə, gimnastika və əl işi kimi qeyri-vacib fənlər tədrisi mümkün olan bütün məktəblərdə demək olar ki, vacib olaraq tədris edilməyə başlanıldı [23, 41(295); 24, 59(705)].

Cənubi Qafqazda yerli dillərin tədrisi tədricən sıxışdırılırdı. Tədrisi yerli dildə olan məktəblərin böyük qismi əsasən Tiflisdə və Kutaisidə idi və bu hal əsasən kilsə-məhəllə məktəblərini əhatə edirdi [22, 17(337)]. Yerli dillərin tədrisinə icazə verilən məktəblərin sayının ildən-ilə azaldığının müşahidə edilirdi [24,57(703)].

1878-1897-ci illərdə tədrisi yalnız rus dilində aparılan məktəblərin sayı 50% artmışdır. Yerli dillərin tədris edildiyi məktəblər 1879-cu ildə bütün Qafqaz məktəblərinin 1/6-ni təşkil etdiyi halda 1897-ci ildə bu tip məktəblərin artıq, demək olar ki, fəaliyyət göstərmədiyi qeyd edilmişdir [25, 56 (782)].

Cənubi Qafqaz məktəblərində təhsil haqqı 2,5 rubldan 10 rubladək dəyişirdi, hər şagirdin təhsil alması üçün orta hesabla 16 manat xərclənirdi [20, 21 (365)].

1876-1904-cü illərdə Yelizavetpol quberniyasının dörd qəzasında 80 kənd məktəbi təsis edilmişdir ki,onlardan 23-ü Şuşa, 30-u Zəngəzur, 10-u Cəbrayıl, 9-u Cavanşir qəzalarında idi. Ən çox məktəb 1901-ci ildə yaranmışdır ki, həmin ildə yaranan 18 məktəbin 6-sı Şuşa, 12-si Zəngəzur qəzalarında idi [27, 72-77; 28, 34-35 (786); 29, 40-41 (780); 30, 50-51; 31, 53-55; 32, 56-59].

1882-ci ildə Zəngəzur qəzasının Qubadlı cəmiyyətinin Qubadlı kəndində birsinifli kənd normal məktəbi açıldı. Kənd əhalisi məktəbin III sinfinin açılmasını və bunun üçün hər şagirddən ildə 4 rubl təhsil haqqı yığılmasını təklif etmişdir [11, v. 11]. 1911-ci ildə məktəb ikisinifli məktəbə çevrildi [4, v. 28, 31, 33]. Digər bir mənbədə isə bu məktəbin 1913-1914-cü dərs ilindən ikisinifli kənd məktəbinə çevrildiyi qeyd olunur. [10, v. 1-3].Məktəbdə 1897-ci ildə 64, 1898-ci ildə 60, 1899-cu ildə 91, 1904-cü ildə 112, 1906-cı ilin oktyabrında 27, 1910-cu ilin oktyabrında 67 [4, v. 7, 37; 29, 50-51; 30, 53-55; 31, 56-59; 32, 72-77] şagird təhsil alırdı. Məktəbdə 1911-ci ildə 2 müəllim, 92-si azərbaycanlı, 2-si erməni olmaqla 94 şagird var idi. Onlardan 25-i imkanlı, 40-ı orta, 29-u kasıb təbəqənin uşaqları idi. Məktəbin xərcləri 1897-ci ildə 618, 1898-ci ildə 1653, 1899-cu ildə 1816, 1904-cü ildə 2384, 1911-ci ildə 1245 [4, v. 28, 31, 33; 29, 50-51; 30, 53-55; 31, 56-59; 32, 72-77] rubl olmuşdur. Burada illik təhsil haqqı 2-3 rubl təyin edilmişdi [10, v. 12]. 1914-cü il fevral ayının məlumatına görə, məktəbdə 120 şagird təhsil almış, onlardan 10-u Qubadlı kəndinin, 110-u isə ətraf kəndlərin sakinlərinin uşaqları idi [11, v. 12].

Qubadlı kənd məktəbinin hələ 1896-cı ildə məktəbin divarlarında çatlar olmasından qəzalı olduğu, sinif otaqlarının dar olması, hər partada 4 şagird oturması, istilik sisteminin qoyulması üçün yer olmaması, otaqların qaranlıq və rütubətli olması haqqında yuxarı orqanlara məlumat verilsə də heç bir tədbir görülməmişdir. Yeni məktəb binasının tikilməsi haqqında yazışmalar 1904-cü ilədək davam etdi. Çarizmin müstəmləkəçi təhsil siyasəti bu məktəbdə də özünü göstərmişdir: 1906-cı ilin sonuna olan məlumata görə müəllimlər artıq 10 aydır ki, əmək haqqı almırdı [4, v. 3-3arx., 6-7, 16-16arx., 35arx.].

1914-1915-ci tədris ilində məktəb artıq öz şəxsi binasında yerləşirdi. Məktəbdə 1 nəzarətçi, 3 müəllim fəaliyyət göstərirdi. Məktəbin nəzarətçisi Q.Sultanov, şəriət müəllimi

A.Zülfüqarbəyov, müəllimlər N.Levyavin, N.Moiseyev idi. 132 şagirddən 131-i azərbaycanlı, 1-i xristian idi. Onlardan 14-ü bəy, 5-i ruhani, 131 kəndli uşağı idi. Şagirdlərdən 41-i hazırlıq, 27-si birinci sinfin birinci, 23-ü ikinci, 20-si üçüncü, 10-u ikinci sinfin dördüncü, 11-i beşinci şöbəsində təhsil alırdı. I Dünya müharibəsi ilə əlaqədar 1914-1915-ci tədris ilinin sonunda məktəbdə 103 şagird qalmışdır. Bu məktəbdə 1914-cü ildə bağçılıq üzrə kənd təsərrüfatı şöbəsi açılmış, məktəbin ərazisində meyvə ağacları əkilmişdir [4, v. 45-48].

1882-ci ildə təsis edilmiş Zəngəzur qəzasının Qarakilsə ikisinifli ictimai kənd məktəbində 1890-cı ildə 59 oğlan, 3 qız olmaqla 62, 1894-cü ildə 57 oğlan, 3 qız olmaqla 60, 1897-ci ildə 86 oğlan, 1898-ci ildə 59 oğlan, 1 qız olmaqla 60, 1899-cu ildə 68 oğlan, 2 qız olmaqla 70, 1904-cü ildə 52 oğlan, 8 qız olmaqla 60 şagird təhsil alırdı. Məktəbin xərcləri 1890-cı ildə 850, 1894-cü ildə 780, 1897-ci ildə 840, 1898-ci ildə 79, 1899-cu ildə 777, 1904-cü ildə 785 rubl olmuşdur [27, 34-35 (786); 28, 40-47 (780); 29, 50-51; 30, 53-55; 31, 56-59; 32, 72-77].

Məktəbin nəzarətçisi 1901-1906-cı illərdə İvan Yoakimov, bundan sonra Baxşi Muradoviç Qriqoryev olmuşdur. 1914-cü ilin məlumatına görə, şəriət müəllimi A.Q.Allahverdov, müəllimi B.Muradov idi. 1912-ci ilin məlumatına görə, müəllim çatışmamazlığı səbəbindən 125 şagirdə B.Qriqoryev dərs keçirdi. 1914-cü ilin məlumatına görə, məktəbdə müsəlman və erməni-qriqoryan dinindən olan 27 şagird şəriəti öyrənmək uşun ildə 180 rubl ödəyirdilər [8, v. 7, 14, 18arx., 39-39arx.].

1897-ci ildə Zəngəzur qəzasının Dığ kəndində məktəb açıldı. Məktəbdə 1897-ci ildə 64, 1898-ci ildə 60, 1899-cu ildə 91, 1904-cü ildə 112 şagird təhsil alırdı. Məktəbin xərcləri 1897-ci ildə 618, 1898-ci ildə 1653, 1899-cu ildə 1816, 1904-cü ildə 2384 rubl olmuşdur[29, 50-51; 30, 53-55; 31, 56-59; 32, 72-77].Dığda 1913-cü ilin avqustunda kənd sakinləri ikisinifli məktəb açmağı və ya Dığ məktəbini ikisinifli məktəbə çevirməyi tələb etmişdir. Məktəbdə 9 qız təhsil aldığından 1913-cü ilin oktyabrında valideynlər əl işinin tədris edilməsini tələb etmişdilər[9, v. 32, 37, 38arx.].

1899-cu ildə təsis edilən Zəngəzur qəzasının Bazarçay oğlan məktəbinin təminatı üçün 1909-cu ildə məktəb yığımlarından Yelizavetpol Məktəblər Müdiriyyətinə ildə 500 rubl ödənilməsi öhdəliyə götürülmüşdür. Bu məbləğin 300 rubla endirilməsi haqqında 1913-cü il yanvarın 24-də edilən müraciətə 1915-ci ildə baxılaraq qəbul edilməmişdir [17, v. 6].

Bazarçay ikisinifli oğlan məktəbi 1916-1917-ci dərs ilinə sentyabrın 19-da fəaliyyətə başlamışdı. Buna səbəb böyüklərinin müharibədə olduğu üçün uşaqların təsərrüfat-məişət işləri ilə məşğul olması idi. Məktəb sentyabrın 19-da 35 şagirdlə fəaliyyətə başlasa da oktyabrın 1-də şagirdlərin sayı 150-yə çatdı. Bu baxımdan, dərslər əslində oktyabrın 1-də başladı. Məktəb 1 hazırlıq, 5 əsas olaraq 6 şöbədən ibarət idi. Bu məktəbdə 1899-cu ildə 32 oğlan, 1904-cü ildə 32 oğlan 7 qız olmaqla 39 şagird təhsil almışdırsa, 1916-1917-ci tədris ilində 89-u oğlan, 61-i qız olmaqla 150 şagird təhsil alırdı. Məktəbin xərcləri 1899-cu ildə 550, 1904-cü ildə 492 rubl olmuşdur [17, v. 12; 31, 56-59; 32, 72-77].

Hazırlıq və I şöbələrdə - rus dili, hesab, hüsnxətt, şəriət, II şöbədə - rus dili, hesab, hüsnxətt, şəriət, qrammatikadan ibtidai anlayışlar, III şöbədə - rus dili, hesab, hüsnxətt, şəriət, qrammatikadan ibtidai anlayışlar, vətənşünaslıq, IV və V şöbələrdə - rus dili, hesab, həndəsə, coğrafiya, tarix, təbiyyatşünaslıq, şəriət, fizikadan ibtidai anlayışlar fənnləri tədris olunurdu [17, v. 12 arx.-13].

Zəngəzur qəzasının Cicimli kənd cəmiyyətinə daxil olan Geranzur kəndində 1901-ci ildə açılmış birsinifli kənd məktəbində 1904-cü ildə 27 şagird təhsil alırdı [32, 72-77]. 1905-1906-cı illərdə fəaliyyət göstərməmiş və dövlət xəzinəsinə ödəniş edilməmişdir. Cəmiyyətin erməni əhalisi dövlət məktəbinin ləğv edilib əvəzinə erməni kilsə-məhəllə məktəbi açmağı tələb edirdi [6, v. 13, 21]. Fikrimizcə, burada əsas məqsəd azərbaycanlı əhalinin təhsil almasına mane olmaq idi.

Qafqaz Təhsil Dairəsinin hesabatında Zəngəzur qəzasının Şalat kəndində 1901-ci ildə XMN-nə tabe birsinifli ictimai kənd məktəbinin açıldığı, 1904-cü ildə 44 oğlan şagirdi olduğu, məktəbə 576 rubl xərcləndiyi qeyd edilmişdir [32, 72-77].Digər bir mənbədə göstərilir ki, bu kənd məktəbində tədris 1906-cı il noyabrın 2-də yenidən başlasa da, artıq 1907-ci il yanvarın 18-dən artıq valideynlər uşaqlarını məktəbə göndərmirdilər. Qeyd edək ki, məktəbdə 1906-ci il noyabrın 15-də 15-i birinci, 6-sı ikinci, 5-i isə üçüncü şöbədə olmaqla 26, 1909-cu il sentyabrın 26-da isə 28 şagirdtəhsil alırdı. 1914-cü ilin mayında məktəbin ikisinifli olaraq fəaliyyət göstərdiyi [6, v. 14,-15, 26, 34] görünür. Başqa bir mənbədə isə 1909-1910-cu tədris ilində Şalatda ikisinifli məktəbin fəaliyyətə başladığı, 5 şöbə, 1 hazırlıq sinfindən ibarət məktəbin yararsız vəziyyətisəbəbindən şagirdlərin dərsə davamiyyətinin qeyri-qənaətbəxş olduğu qeyd olunur [8, v. 3-3 arx.].

1914-1915-ci dərs ilində 16 şagird hazırlıq sinfindən birinci sinfə keçmiş, 10 nəfər hazırlıq sinfində qalmışdır. 15 şagird birinci sinifdən ikinci sinfə keçmiş, 4 nəfər birinci sinifdə qalmışdır. 14 şagird ikinci sinifdən üçüncü sinfə keçmiş, 2 nəfər ikinci sinifdə qalmışdır. 6 şagird üçüncü sinifdən dördüncü sinfə keçmiş, 3 nəfər üçüncü sinifdə qalmışdır. 6 şagird dördüncü sinifdən beşinci sinfə keçmiş, 2 nəfər dördüncü sinifdə qalmışdır. Beşinci sinfin 5 şagirdinin hamısı məktəbi müvəffəqiyyətlə başa vurmuşdular [8, v. 4-4arx., 5].

Zəngəzur qəzasının Əliqulukənd birsinifli kənd məktəbi 1902-ci ildə təsis edilmişdir. 1904-cü ildə kəndin erməni əhalisi məktəbdə tədrisin başlamasına təzyiq göstərmiş, onun əvəzinə erməni kilsə-məhəllə məktəbinin açılmasını tələb etmişdilər. İstəklərinə nail ola bilməyən ermənilər 1906-cı ildə yenidən aç oğlanların təhsil ala bilməyəcəyini və hər ailənin ildə 25 qəpik ödəyə bilməyəcəyini səbəb gətirərək məktəbin bağlanmasını tələb etmişdilər [5, v. 7-7arx., 10-10arx.].

1902-ci ildə 13 kəndin daxil olduğu Oxçu kənd cəmiyyətinin Oxçu kəndində birsinifli normal kənd məktəbi açıldı. Oxçu kənd cəmiyyətinə Oxçu, Gecanan, Şabadin, Panisli, Kürdkənd, Atkiz, Pirdaydan, Purxut, Arçazur, Afsirli, Budaucaq, Pirməzrə, Qaçafka kəndləri daxildir [2, v. 2, 3-4, 6]. 1904-cü ildə bu məktəbdə 31 şagird təhsil alırdı. Məktəbin xərcləri 600 rubl olmuşdur [32, 72-77].

Baharlı birsinifli ictimai kənd məktəbində 1911-ci ildə 1 müəllim, 46 oğlan şagird, var idi. Şagirdlərdən 10-u varlı, 20-si orta, 16-sı isə kasıb təbəqənin uşaqları idi. Xalq Məktəbləri Nazirliyinə tabe olan bu məktəbdə müəllimin əmək haqqı ildə 400 rubl idi [7, v. 5-6].

1911-ci il avqustun 31-də Zəngəzur qəzasının Punis kəndində XMN-ə tabe olan məktəb açıldı. Məktəbin təsisi üçün 421 rubl 65 qəpik vəsait xərcləndi [1, v. 13].

Zəngəzur qəzasının Vartanazur kəndindəməktəb açılması üçün kəndin sakini Məşədi Tərqulu oğlu Məşədi Cəfər 1913-cü il sentyabrın 20-də xəzinəyə 200 rubl ödəmişdir. Lakin 1913-cü il oktyabrın 30-da Amrakar kəndində açılmasına qərar verildi [14, v. 1].

1913-cü ilin oktyabrında Zəngəzur qəzasının Agüdü kənd cəmiyyətinin Agüdü kəndində kənd məktəbi fəaliyyətə başladı. Kənd cəmiyyəti məktəbin təmini üçün ildə 176 rubl ayıracığını öhdəsinə götürdü [12, v. 2, 4-5].

1913-cü ildə Böyük Bəymanlı kəndində məktəb təsis edilmişdi. Lakin məktəbə müəllim təyin olunan Çekalov sənədlərini təqdim etsə də 1913-cü il oktyabrın 14-nə olan məlumata görə məktəbə gəlib çıxmamışdır [16, v. 6].

Zəngəzur qəzasının Qədim Gorus kənd birsinifli məktəbində 1913-cü ilin noyabrında bir qadın nəzarətçi, 64 şagird var. Əhalinin tələbi və ildə məktəbin gəlirlərindən 600 rubl ayıracağı [15, v. 1-1arx.] vədi nəticəsində 1914-cü il sentyabrın 1-dən məktəb ikisinifli məktəbə çevrildi. X.Ter-Baqdasaryanın nəzarətçisi olduğu məktəbdə 1917-ci ilin mayında 70 şagird təhsil alsa da noyabrda bu rəqəm 15-i qız, 81-i oğlan olmaqla 96-ya çatdı [15, v. 11, 17, 19].

Artsevan cəmiyyətinin Xələc kəndində 1914-cü ildə ikisinifli kənd məktəbi fəaliyyətə başlamışdı. Məktəbin nəzarətçisi Teymur bəy Lütfəlibəyov (ibtidai müəllim hüququnda),

şəriət müəllimi Molla Həmid Babayev (müəllim hüququnda) idi. Məktəbdə 25 azərbaycanlı oğlan təhsil alırdı, onlardan 5-i bəy, 20-si kəndli uşağı idi. Şagirdlərdən 14-ü hazırlıq, 11-i birinci şöbədə təhsil alırdı. Həm hazırlıq, həm də birinci şöbənin hər birində həftədə rus dilinə (yazılı və şifahi) 12, hesaba 12, şəriətə 6, ana dilinə 6 dərs saatı ayrılmışdır [12, v. 5-5arx.].

1914-cü ildə Zəngəzur qəzasının Temirmuskanlı kənd cəmiyyətinin Əliquluuşağı kəndində birsinifli kənd məktəbi açılması üçün qərar verilmişdi. Cəmiyyət məktəbin açılmasından şəxsi binasının tikilməsinədək olan müddətdə məktəbə ildə 200 rubl ödəyəcəyini öhdəliyə götürdü [13, v. 1-2].

Tədqiqatlardan aydın olur ki, Qarabağ bölgəsinin kəndlərində dünyəvi təhsilin yayılmasında təlimin rus dilində aparıldığı kənd məktəbləri böyük rol oynamışdır. Çarizm xalq maarifi sahəsindəki mürtəce siyasəti ilə kənd məktəblərinin inkişafının və genişlənməsinin qarşısını almağa çalışsa da, Xalq Məktəblər Müdiriyyətinin və Cənubi Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin təşkili, seminariyada müəllim kadrlarının hazırlığı kənd məktəblərinin təşkilinə və tədricən genişlənməsinə rəvac verdi. Digər məktəblərdə təhsil haqqının yüksək olması, kəndlərdən uzaqda yerləşməsi, silki xarakter daşıması, bir çox bürokratik əngəllərin mövcudluğu baxımından kənd məktəbləri xalq arasında dünyəvi təhsili yayan, demək olar ki, yeganə təhsil müəssisələri olmuşdur.

***Ədəbiyyat***


1.Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (bundan sonra ARDTA): f. 311, 1, iş 73
2.ARDTA: f. 406, 1, iş 6
3.ARDTA: f. 406, 1, iş 24
4.ARDTA: f. 406, 1, iş 95
5.ARDTA: f. 406, 1, iş 96
6.ARDTA: f. 406, 1, iş 131
7.ARDTA: f. 406, 1, iş 159
8.ARDTA: f. 406, 1, iş 195
9.ARDTA: f. 406, 1, iş 214
10.ARDTA: f. 406, 1, iş 221
11.ARDTA: f. 406, 1, iş 241
12.ARDTA: f. 406, 1, iş 250
13.ARDTA: f. 406, 1, iş 256
14.ARDTA: f. 406, 1, iş 279
15.ARDTA: f. 406, 1, iş 292
16.ARDTA: f. 406, 1, iş 302
17.ARDTA: f. 406, 1, iş 307
18.Çingizoğlu Ə. Qarabağda maarif (1750-1950), Bakı: 2013, 288 s.
19.Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006, 580 s.
20.Журнал Министерства народн просвещение. часть 255, 1888 январь. Современная летопись. С.-Петербургь. Типография Б.С.Балашева, 1888, 908 с.
21.Журнал Министерства народного просвещение. часть 266, 1889 декабрь. Современная летопись. С.-Петербургь. Типография Б.С.Балашева, 1888, 891 с.
22.Журнал Министерства народного просвещение. часть 271, 1890 сентябрь. Современная летопись. С.-Петербургь. Типография Б.С.Балашева, 1890, 788 с.
23.Журнал Министерства народного просвещение. часть 304, 1896 марть. Современная летопись. С.-Петербургь. Типография Б.С.Балашев и К, 1896, 859 с.
24.Журнал Министерства народного просвещение. часть 316, 1898 апрель. Современная летопись. С.-Петербургь. Типография Б.С.Балашев и К, 1898, 819 с.
25.Журнал Министерства народного просвещение. часть 321, 1899 февраль. Правительственная распоряжения С.-Петербургь. Типография Б.С.Балашева, 1899, 893с.

26.Кавказский вестник. ежемесячный научно-литературный журналъ. годъ второй. № 10, октябрь, 1901 г. Тифлис: Скоропечатня М: Мартиросянца,. 1901.
27.Отчет попечителя Кавказского Учебного округа о состоянии учебных заведений за 1890 год. Список учебных заведений Кавказского Учебного Округа и училищь Кавказского края, не подчиненных управлению Учебного Округа к 1 января 1891 году. Тифлис: Типография канцелярии Главноначальствующаго граждан. Частью на Кавказ, 1891, 84+594+100+26 с.
28.Отчет попечителя Кавказского Учебного округа о состоянии учебных заведений за 1894 год. Список учебных заведений Кавказского Учебного Округа и училищь Кавказского края, не подчиненных управлению Учебного Округа к 1 января 1895 году. Тифлис: Типография канцелярии Главноначальствующаго граждан. Частью на Кавказ, 1895, 84+594+100+26 с.
29.Отчет попечителя Кавказского Учебного округа о состоянии учебных заведений за 1897 год. Список учебных заведений Кавказского Учебного Округа и училищь Кавказского края, не подчиненных управлению Учебного Округа к 1 января 1898 году. Тифлис: Типография канцелярии Главноначальствующаго граждан. Частью на Кавказ, 1898, 84+594+100+26 с.
30.Отчет попечителя Кавказского Учебного округа о состоянии учебных заведений за 1898 год. Список учебных заведений Кавказского Учебного Округа и училищь Кавказского края, не подчиненных управлению Учебного Округа к 1 января 1899 году. Тифлис: Типография канцелярии Главноначальствующаго граждан. Частью на Кавказ, 1899, 70+572+70+28 с.
31.Отчет попечителя Кавказского Учебного округа о состоянии учебных заведений за 1899 год. Приложение 2-е. Список учебных заведений Кавказского Учебного Округа к 1 января 1900 года. Тифлис: Типография канцелярии Главноначальствующаго граждан. Частью на Кавказ, 1900
32.Отчет попечителя Кавказского Учебного округа о состоянии учебных заведений за 1904 год. Приложение 2-е. Список учебных заведений Кавказского Учебного Округа к 1 января 1904 года. Тифлис: Типография канцелярии Главноначальствующаго граждан. Частью на Кавказ, 1905
33.Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 48, отделение второе. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1876, 648 с., закон 52808
34.Циркуляр по управлению Кавказским Учебным Округом, Тифлис 1883, № 12

## RURAL (FOLK) SCHOOLS OF ZANGEZUR DISTRICT (END OF THE 19TH CENTURY- EARLY 20TH CENTURY)

***Bakhishova Rena Rizvan gizi***

***Summary***

Due to the small number of state schools that appeared in Northern Azerbaijan after its conquest by tsarism, the rural population remained aloof from secular education. As a result of the efforts of the intelligentsia, the first three rural schools in the South Caucasus, opened in 1876, included a one-class normal rural school in the village of Gorus, Zangezur Uyezd. After that, the number of rural schools increased. The article clearly shows that among the districts of Garabagh, the largest number of rural schools were in Zangezur district.

## СЕЛЬСКИЕ (НАРОДНЫЕ) ШКОЛЫ ЗАНГЕЗУРСКОГО УЕЗДА (КОНЕЦ XIX ВЕКА-НАЧАЛО XX ВЕКА)

***Бахышова Рена Ризван кызы***

***Резюме***

Из-за малочисленности государственных школ, появившихся в Северном Азербайджане после его завоевания царизмом, сельское население оставалось в стороне от светского образования. В результате усилий интеллигенции в числе первых трех сельских школ на Южном Кавказе, открытых в 1876 году, была одноклассная нормальная сельская школа в селении Горус Зангезурского уезда. После этого количество сельских школ увеличилось. Из статьи наглядно усматривается, что среди уездов Гарабага наибольшее число сельских школ находилось в Зангезурском уезде.

***Rəyçi: tarix üzrə elmlər doktoru Nazim Rəhbər oğlu Məmmədov***

***AMEA A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsinin 01 iyul 2019-cu il tarixli iclasının 4 saylı protokolundan çıxarış***

***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:930.85**

## MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN TƏŞKİLİ VƏ FƏALİYYƏTİ

***Cabbarova Elnarə Oktay qızı***

***ADPU-nin Şəki filialı***

***El_cabbarova1980@mail.ru***

**Xülasə:** *XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında cərəyan edən proseslər həmdə respublikamızda muzey işinin təşkilinə təkan vermiş, Respublikamızda geniş xalq kütləsinin istifadə edə biləcəyi, xalqımızın tarixini, mədəniyyətini əks etdirən maddi-mədəniyyət nümunələrini özündə cəmləşdirən, mühafizə edən, elmi-tədqiqat xarakteri daşıyan müxtəlif profilli muzeylərin yaradılması prosesinə başlanılmışdır.*

*Respublikamızda bütün muzeylərin yaranmasına təkan verən isə bizim milli sərvətimiz, qürur mənbəyimiz olan Milli Azərbaycan Tarixi muzeyidirki məhz bu məqalədədə bu muzeyin təşkili tarixi və fəaliyyətindən bəhs olunur.*

**Açar sözlər:** muzey, Azərbaycan tarix muzeyi, eksponat, ekspozisiya, kolleksiya, fond

**Ключевые слова:** музей, Исторический музей, экспонат, экспозиция,коллекция, фонд

**Key words:** museum, Historical museum, exposition, collection, fund

Muzeylər - tarixin müəyyən məqamlarını özündə yaşadan, ötən əsrlərin müxtəlif hadisələrindən xəbər verən, eksponatları kompleksləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən, maddi- mənəvi mədəniyyət, elm, maarif ocaqları mərkəzləridir .Burada saxlanılan hər bir eksponat xalqın çoxəsrlik tarixini, qədimliyini və minilliyini əks etdirir. Muzeylər funksiyasına görə hər bir xalqın milli-mənəvi sərvətidir, gənclərin vətənpərvərlik, beynəlmiləlçilik tərbiyəsində böyük əhəmiyyət kəsb edən bir mədəniyyət ocağıdır.

İnsan yarandığı gündən öz keçmişini dərk etməyə, onu layiqincə qiymətləndirməyə çalışıb. Keçmişimizə işıq tutmaqda, özümüzə və başqalarına, torpağımıza, ayrı-ayrı şəxsiyyətlərə, tariximizdə baş vermiş sosial-siyasi hadisələrə münasibətimizin formalaşmasında muzeylərin rolu əvəzsizdir.

Möhtərəm mərhum prezidentimiz Heydər Əliyevin təbirincə desək muzeylərin mənası, əhəmiyyəti hər bir xalqın o cümlədəndə Azərbaycan xalqının tarixini təbliğ və əks etdirməkdən,mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir..